**HÜQUQ MƏSƏLƏLƏRİ VƏ BEYNƏLXALQ ƏLAQƏLƏR KOMİSSİYASI**

**SƏKKİZİNCİ İCLAS**

**“TÜRKPA Üzvü Ölkələri Arasında Turizmin İnkişafı:**

**Covid-19 Pandemiyasının Təsiri və Gələcək Perspektivlər”**

# TÖVSİYƏ QƏRARI

Parlament Assambleyası:

turizm sektorunu üzv ölkələr üçün perspektivli iqtisadi infrastruktur olduğunu ***qəbul edərək***;

ortaq mədəniyyət, sivilizasiya və tarixə sahib üzv ölkələr arasında turizm şəbəkəsinin inkişafının zəruriliyini ***vurğulayaraq***;

ölkələrin tarixi və mədəni irsinin qorunmasının və dünyanın diqqətini cəlb etmək üçün onların turizmə açıq olmasının əhəmiyyətini ***vurğulayaraq***;

ölkələrdən birbaşa uçuşların təmin edilməsi kimi üzv ölkələr arasında nəqliyyat xidmətlərinin inkişafının regiona turistlərin səfəri və ölkə daxilində turizm bölgələrinə çıxışın yaxşılaşdırılması üçün mühüm tədbir olduğunu ***nəzərə alaraq***;

üzv ölkələrdə turizm haqqında bütün növ məlumatlara məhdudiyyətsiz çıxış ehtiyacına ***diqqət çəkərək***;

üzv ölkələr arasında, xüsusən COVID-19 pandemiyası dövründə səhiyyə turizminin əhəmiyyətini ***qəbul edərək***;

COVID-19 pandemiyasının üzv ölkələrdə turizm sektoruna mənfi təsirindən ***xəbərdar olaraq***;

xüsusən COVID-19 pandemiyası səbəbilə üzv ölkələr arasında turizm fəaliyyətlərinin arzuolunan səviyyədə olmadığını ***qəbul edərək***;

üzv ölkələr arasında böyük turizm potensialını ***anlayaraq***;

üzv ölkələr arasında turizm sektorunda problemlərə həllərin tapılması məqsədilə ortaq siyasətin hazırlanmasına sadiqliyini ***bir daha təsdiqləyərək***;

TÜRKPA üzv ölkələrinin parlamentlərinə **tövsiyə edir**:

bütün digər sektorların, maraqlı tərəfləri və turizm dəyər zəncirində sosial-iqtisadi fəaliyyətlərin cəlb edilməsi ilə TÜRKPA üzv ölkələrində turizmin inkişafı üçün ortaq strategiya və fəaliyyət planının *hazırlanması*;

qarşılıqlı turist axınının artırılması və üçüncü ölkələrdən turistlərin cəlb edilməsi məqsədilə müvafiq mexanizmlərin *inkişaf etdirilməsi*;

ortaq təşviqat strategiyalarının *hazırlanması* və turizmin təşviqi üçün səylərinin *sürətləndirilməsi*;

dayanıqlı turizm çərçivəsində turistlərin diqqətini cəlb edə biləcək alternativ turizm seçimlərinin *hazırlanması*;

turizm müəssisələrini kəmiyyət və keyfiyyət baxımından yaxşı səviyyəyə gətirərək institusional potensialın *gücləndirilməsi* və bu məqsədlə dövlət tərəfindən təşviq etmə;

daha çox turist cəlb edilməsi üçün beynəlxalq turizm operatorlarının *təşviq edilməsi və dəstəklənməsi*;

turizmin yüksəlməsi məqsədilə nəqliyyat və yerləşmə ilə bağlı münasib qiymətlərin *təqdim edilməsi*;

Türkdilli ölkələr arasında birbaşa uçuşların qurulması və sayının artırılması;

turizm sektorunda ehtiyac duyulan ixtisaslı kadrların hazırlanmasının *təmin edilməsi*;

turizm sektoru nümayəndələri arasında məlumat və təcrübə mübadiləsi üçün mexanizmlərin *yaradılması*;

üzv ölkələrdə təşkil edilmiş turizm tədbirlərində müvafiq maraqlı tərəflərin qarşılıqlı iştirakının *təşviq edilməsi*;

COVID-19 pandemiyasının turizm sektorunda təsirini yumşaltmaq üçün tədbirlərin daha yaxşı koordinasiyası məqsədilə milli turizm təşkilatları və səhiyyə, nəqliyyat və miqrasiya sahəsində müvafiq maraqlı tərəflər arasında əməkdaşlığın *təşviq edilməsi*;

məlumatların qorunması və gizliliyə riayət olunması ilə turizm müəssisələrinin istifadəsi üçün üzv ölkələrdə peyvəndləmə prosesi də daxil olmaqla COVID-19 pandemiyası üzrə müvafiq məlumatları əks etdirən məlumat bazasının *yaradılması*;

milli və regional turizm imkanlarının artırılması, biznes və istehlakçı inamının artırılması üçün sənaye nümayəndələri ilə qarşılıqlı fəaliyyət, rəqəmsal texnologiyaların istifadəsi, marketinq səylərinin və birgə turizm təşviq proqramlarının koordinasiyası ilə turizm sektorunun təşviq edilməsi məqsədilə yaradıcı və innovativ həllərin araşdırılmasını əks etdirə biləcək turizm sektoru üçün Post-COVID-19 Böhran Bərpa Planın *yaradılması və həyata keçirilməsi*;

***təhlükəsiz turizm haqqında:***

COVID-19 pandemiyasının törətdiyi problemlərlə mübarizə məqsədilə “təhlükəsiz turizm” üçün ortaq strategiyanın *hazırlanması* və bu kontekstdə üzv ölkələrdə turizm sektorunda, xüsusən turistlərin beynəlxalq hərəkətində onun həyata keçirilməsinin *təmin edilməsi*, bu strategiyanın prinsiplərinə uyğun gəlməyən turizm müəssisələrinin fəaliyyətinin qarşısının alınması.